# Formula 1 yenə də dünyanın diqqətini Azərbaycana cəlb edir




***Yarandığı ilk gündən bəri avtoidman növlərinin zirvəsi kimi qəbul edilən və dünyada ən çox izləyici toplayan Formula 1 növbəti dəfə paytaxtımıza qonaq olur. İdmanın bu kütləvi növünün zəngin və maraqlı tarixi var. Müxtəlif mərhələlərdə yeni qaydalar, fərqli təkmilləşdirilmələr gətirilən yarış dünya səviyyəsində ilk dəfə 1950-ci ilin may ayında İngiltərənin Silverstone dövrəsində keçirilib. Kral ailəsinin də izlədiyi ilk dünya çempionatında 21 avtomobil qalibiyyət üçün mübarizə aparırdı. Əslində, bu yarışların formulu hələ 1946-cı ildə qəbul edilən ümumi qaydalar və tənzimləmələrlə təsdiq edilmişdi. Hətta həmin dövrdən 1950-ci ilə qədər bir neçə yarış da keçirilmiş və Formula 1 adı avtoidman yarışları sırasına daxil edilmişdi. Lakin ilk beynəlxalq və rəsmi turnirin keçirildiyi 1950-ci il Formula 1 üçün intibah ili hesab edilir.***

Ölkəmiz bu mötəbər idman yarışına ilk dəfə 2016-cı ildə evsahibliyi etdi. 2016-cı ilin dekabrında paytaxt Bakıda keçirilən Formula1 Azərbaycanda baş tutan ən böyük idman tədbirlərindən biri idi. İzləyicilərə böyük sürət, həyəcan və əyləncə vəd edən yarışlar insanların böyük marağına səbəb oldu. Qonşu dövlətlərdən, eləcə də Avropanın aparıcı ölkələrindən on minlərlə turist Formula 1 həvəskarı olaraq bu yarışı izləmək üçün Bakıya qonaq gəldi. 2016-cı il Qran prisi ölkəmizin beynəlxalq arenada tanıdılması baxımından da böyük əhəmiyyət kəsb edirdi. Belə ki, 2016-cı il Formula 1 Avropa Qran Prisinin ulduz elçisi seçilmiş Mclaren komandasının pilotu Fernando Alonso paytaxtımızı gördükdən sonra bildirdi ki, Formula 1-in ən sürətli şəhər halqasının Bakıda keçirilməsi heç də təəccüblü hal deyil: “Mən Formula 1-in ən sürətli şəhər halqasının Bakıda keçirilməsinə təəccüblənmirəm. Bakı həm qədim, həm də müasir şəhərdir. Bura gəldiyim andan məni səslər, görməli yerlər və gülər üzlər salamladı. Bakının inanılmaz enerjisi var.”

Dünyanın ən güclü və məşhur F1 pilotlarından hesab edilən Luis Hamilton yarışdan sonra trekin onun üçün gözlənilməz olduğunu və Bakıdan xoş təəssüratlarla ayrıldığını bildirmişdi.

Ölkəmizdə keçirilən Formula 1 yarışları yüksək standartlara cavab verirdi. Bu yarışların keçirildiyi şəhər istər yol infrastrukturu, istərsə də qabaqcıl təhlükəsizlik tədbirlərinin təmin edilməsi baxımından yüksək standartlara cavab verdiyini nəzərə alsaq, onda söyləmək olar ki, Bakı həqiqətən də nüfuzlu beynəlxalq tədbirlərin, o cümlədən idman yarışlarının keçirilməsi baxımından yüksək təşkilati və texniki bazaya malikdir.

Azərbaycanda keçirilən ilk F1 yarışları onu göstərdi ki, ölkəmiz bu səviyyədə kütləvi yarışların keçirilməsinə tam hazırdır. Yarışlara hazırlıq yüksək səviyyədə həyata keçirildi. Yollar F1 standartlarına uyğunlaşdırıldı.

Ümumilikdə söyləmək olar ki, bu tədbirin Azərbaycanda keçirilməsi təqdirəlayiq və ölkə nüfuzunün dünya arenasında yüksəlməsi baxımından nadir fürsətlərdən biridir. Belə yarışlarda dünyanın müxtəlif ölkələrindən olan idman azarkeşləri ilə yanaşı, həm də böyük şirkətlər iştirak edirlər. Belə olan halda, bu, ölkə iqtisadiyyatı baxımından da mühüm önəm daşıyır.

Bu yarışları ölkənin tanıdılması və təbliği baxımından da yüksək qiymətləndirmək olar. Belə yarışlar ölkəyə maddi gəlir gətirməklə yanaşı, həm də sosial-iqtisadi istiqamətdə də inkişafa səbəb olur.

Dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula 1 Avropa Qran prisinin paytaxtımızda keçirilməsi ölkəmizin beynəlxalq idman ictimaiyyətində qazandığı uğurun və nüfuzun göstəricisidir. Birinci Avropa Oyunlarından sonra F1 kimi mühüm yarışın Bakıda keçirilməsi Azərbaycanın idman ölkəsi olduğunu bu sahənin inkişafına dövlət səviyyəsində xüsusi diqqət göstərildiyini əks etdirir.

Dövlət başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev də öz növbəsində yarışların ölkəmiz üçün çox əhəmiyyətli olduğunu, bunun bir çox istiqamətdə Azərbaycana xeyir gətirdiyini bildirmişdi: “Formula 1 yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, Formula 1 yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə. Əgər kimsə deyirsə, bu, bizə ziyan vurur, o, ya bilmir, ya da ki, qəsdən işləri təhrif etmək istəyir. Əgər, bu, bizə ziyan vurursa, onda yaxşı, bizimlə bərabər bu yarışı keçirən 20-yə yaxın şəhərə də ziyan vurur, onlar da ziyana işləyirlər? Əlbəttə ki, yox. Formula1 yarışının multiplikativ effekti çox böyükdür. Xaricdən gələn minlərlə qonaq burada pul xərcləyir. Bunun iqtisadi cəhətdən çox böyük səmərəsi var. Birinci Formula 1-dən sonra Azərbaycana kütləvi turist axını başlamışdır”.

Hər birimiz bu tarixi yaxşı xatırlayırıq. Azərbaycanda keçirilən birinci yarışdan sonra ölkəmizə gələn turistlərin sayı 24 faiz artmışdır. Növbəti ildə bu göstəricidə daha 22 faiz artım müşahidə edildi. Həmin il tarixdə ilk dəfə Azərbaycana 3 milyondan çox turist səfər etmişdir.

Hazırda dünyada inkişaf etmiş ölkələr daha çox turist cəlb etmək uğrunda mübarizə aparırlar. Çünki ölkəyə turist axınının olması sadəcə gələn qonaqların xərclədiyi pullarla ölçülmür. Belə ki, yeni iş yerlərinin yaradılması, xidmət və nəqliyyat sektorlarının inkişafı hər biri özlüyündə turizm sahəsi ilə qarşılıqlı əlaqəlidir. Əlbəttə, heç kəs üçün sirr deyil ki, hətta bəzi inkişaf etmiş, qabaqcıl ölkələrdə də turizm aparıcı iqtisadi sektordur. Bunu nəzərə alaraq söyləmək mümkündür ki, Formula 1 yarışlarının ölkəmiz üçün xüsusi əhəmiyyəti var.

Yuxarıda qeyd edildiyi kimi, yarışlar zamanı böyük beynəlxalq şirkətlərin rəhbərləri də paytaxtımıza gəlmişdilər. Əlbəttə, bu, turist axınının təkcə turizm sahəsinə deyil, ümumilikdə, ölkə iqtisadiyyatına da müsbət təsir göstərdiyini bir daha təsdiqləyir. Nüfuzlu şirkətlərin rəhbərləri, o cümlədən səlahiyyətli nümayəndələri yarışlar zamanı həm də ölkənin iqtisadi potensialı, biznes imkanları ilə yaxından maraqlanır və bu da ölkəyə xarici investisiya qoyuluşunun artmasına öz töhfəsini verir.

Nəticə olaraq onu söyləmək olar ki, yarışların ölkəmizdə keçirilməsi iqtisadiyyatın bir sıra sahələrində canlanmaya səbəb olur.

Yeri gəlmişkən qeyd edim ki, Formula 1 2021-ci ildə yenidən Azərbaycana qonaq gəlir. Əsasnaməyə görə, 2023-cü ilə qədər keçirilməsi planlaşdırılılan Bakı Qran prisi ötən il COVID-19 pandemiyası ilə əlaqədar təxirə salınmışdı. Dünya iqtisadiyyatının böyük miqyasda zərərə uğradığı, turizm sahəsinin isə 2 ilə yaxın zaman ərzində çöküşdə olduğu belə bir dövrdə Formula 1-ə evsahibliyi etmək hər ölkənin hünəri deyil. Ümid edirik ki, Formula 1 yarışları Azərbaycana bundan sonra da idman ölkəsi kimi böyük nüfuz qazandıracaq.

***İmran ƏLİYEV, “Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 1 iyun.- S.9.